İpoteka üzrə güzəştlərdən aşağıdakı şəxslərin istifadə etmək hüququ vardır ("Azərbaycan Respublikasında güzəştli ipoteka kreditlərinin verilməsi Qaydaları"na uyğun olaraq həyata keçirilir):

Gənc ailənin üzvü olan aşağıdakı şəxslər:

- şəhid ailəsinin üzvü (əri/arvadı, övladları),
- Milli Qəhrəman (özü, əri/arvadı, övladları),
- Məcburi köçkün və ya ona bərabər tutulan şəxs (məcburi köçkünlərər bərabər tutulan şəxslərə Ermənistan Respublikasında və başqa dövlətlərdə aparılan etnik təmizləmə nəticəsində yaşayış yerlərini tərk edib Azərbaycan Respublikasına gəlmiş və daimi məskunlaşmamış şəxslər aiddir),
- üç ildən az olmayan müddətdə dövlət qulluqçusu işləyən şəxs,
- beş ildən az olmayan müddətdə dövlət ümumtəhsil məktəbində müəllim işləyən şəxslər,
- fəlsəfə doktoru/elmlər doktoru elmi dərəcəsi olan şəxs,
- idman sahəsində xüsusi xidmətləri olan şəxslər (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçıları (I,II və III yerlər),
- Üç ildən az olmayan müddətdə hərbi xidmətdə olmuş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçuları (müddətli həqiqi xidmətdə olan hərbi qulluqçulardan başqa), həmçinin, ehtiyata və istefaya buraxılmış hərbi qulluqçular.

Qeyd: "Gənc ailə" anlayışı Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə əsasən yaşı 35-dən çox olmayan iki şəxsin nikaha daxil olmasındann yaranan ailəni, habelə himayəsində azı bir uşağı olan və yaşı 35-dən çox olmayan tək valideyni ifadə edir.

Hər bir ailə (şəxs) güzəştli ipoteka kreditlərindən yalnız bir dəfə istifadə edə bilərlər.